İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

FEVRAL 2017




**Baş redaktor**

**Dr. Vüsal Musayev**

*İqtisad Elmləri Doktoru*

London Universiteti

www.vusalmusayev.com

dr.vusal.musayev@ereforms.org


# AZƏRBAYCAN İQTİSADİ İSLAHATLAR İCMALI

# MÜNDƏRİCAT

1. VERGİLƏR MƏCƏLLƏSİNƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR .................... 3
2. QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ .................................. 15
3. AZƏRBAYCAN RƏQƏMSAL TİCARƏT QOVŞAĞI ........................... 20
4. TİCARƏT FESTİVALLARI .......................................... 24
5. DÖVLƏT İMTAHAN MƏRKƏZİ ........................................ 30

© İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin fəaliyyətinin məqsədləri ölkənin dayanıqlı iqtisadi inkişafının təmin edilməsi istiqamətində makro və mikroiqtisadi səviyyədə təhlil və tədqiqatlar aparmaqdır. Qurum analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflər, habelə orta və uzun müddətli dövr üçün proqnozlar hazırlayır, dövlət orqanlarını və qurumlarını həmin proqnozlarla təmin edir, həmçinin iqtisadiyyatın müxtəlif sahələrində Azərbaycan Respublikasının nailiyyətlərinin təbliğini təşkil edir.




# VERGİLƏR MƏCƏLLƏSİNƏ ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR

Azərbaycan Respublikası Prezidentinin "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında" 4 avqust 2016-cı il tarixli 2257 nömrəli Sərəncamının icrası ilə bağlı Vergilər Nazirliyi tərəfindən Qanun layihəsi hazırlanmışdır. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Qanun layihəsi 115 yeni maddəni, 83 maddəyə dəyişiklik edilməsini, 3 maddənin isə ləğv olunmasını ehtiva etməklə 201 dəyişiklikdən ibarətdir.

Azərbaycan iqtisadiyyatı üzrə aparılan çoxşaxəli islahatlar bütövlükdə səmərəli vergi siyasətinin, təkmil vergi qanunvericiliyinin və əlverişli vergi mühitinin formalaşdırılmasını özündə ehtiva etməkdədir. Belə ki, ötən dövr ərzində irimiqyaslı konsepsiyalar, strategiya və proqramların qəbul edilməsi, beynəlxalq əməkdaşlıq çərçivəsində ən qabaqcıl beynəlxalq təcrübələr öyrənilərək milli vergi sistemində səmərəli tətbiq edilməsi, institusional potensialın gücləndirilməsi, vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi sahəsində mühüm nailiyyətlər əldə edilmişdir.

Ölkədə aparılan iqtisadi islahatların tərkib hissəsi və vergi sahəsində aparılan islahatların davamı kimi Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli *“2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri”nin və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında”* Sərəncamı ilə *“2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri”* təsdiq edilmiş və Vergilər Nazirliyinə vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı bir sıra tapşırıqlar verilmişdir.

Bu tapşırıqların icrası çərçivəsində Nazirliyin Kollegiya Qərarı ilə ***7 qayda və 4 inzibati reqlament*** təsdiq edilmiş və həmin normativ sənədlər Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində qeydiyyatdan keçirilmişdir. Eyni zmanda qabaqcıl beynəlxalq təcrübə araşdırılmaqla və beynəlxalq ekspertlərin rəyləri nəzərə alınmaqla bir sıra qanun layihələri hazırlanmışdır.

Təqdim olunan qanun layihələri çərçivəsində həyata keçirilən islahatlar əsasən ölkədə **nağd hesablaşmaların həcminin azaldılması, elektron ticarətin vergiyə cəlb edilməsi, transfer qiymətqoyma, uçot siyasətinin təkmilləşdirilməsi və şəffaflaşdırılması, vergi yükünün azaldılması, vergi inzibatçılığının sadələşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının genişləndirilməsi, vergi qanunvericiliyinə əməl edən intizamlı vergi ödəyicilərinə münasibətdə vergi orqanları tərəfindən göstərilən xidmətlərin səviyyəsinin daha da artırılması** kimi mühüm məsələləri əhatə etməkdədir. Məlumat xarakterli olaraq onu da qeyd etmək yerinə düşər ki, artıq vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin artırılması məqsədilə intizamlı vergi ödəyicilərinə xidmətin **“Yaşıl dəhliz” prinsipi əsasında** həyata keçirilməsinə başlanılmışdır. Qanun layihələrinə uyğun olaraq şəffaf şəkildə uçot aparan digər vergi ödəyicilərinə də münasibətdə “Yaşıl dəhliz” prinsipi əsasında xidmətlərin göstərilməsi nəzərdə tutulan tədbirlər sırasında öz yerini tapmaqdadır.

Ümumi şəkildə qruplaşdırsaq, təqdim edilən normativ sənədlər toplusu Vergi Məcəlləsinə, Mülki Prosessual Məcəlləyə, İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə, habelə “Elektron ticarət haqqında”, “Dövlət rüsumu haqqında”, “İcra haqqında” qanunlara dəyişiklikləri nəzərdə tutan qanun layihələrindən və “Nağdsız hesablaşmalar haqqında” qanun layihəsindən ibarətdir.

“Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Qanun layihəsi ***115 yeni maddəni, 83 maddəyə dəyişiklik edilməsini, 3 maddənin isə ləğv olunmasını ehtiva etməklə 201 dəyişiklikdən ibarətdir***. Bu dəyişikliklərin 123 maddəsi vergi inzibatçılığının təkmilləşdirilməsi, uçot siyasətinin şəffaflaşdırılması ilə, 34 maddəsi vergi ödəyicilərinin hüquqlarının

genişləndirilməsi ilə, 8 maddəsi isə vergi yükünün azaldılması, o cümlədən vergi güzəşt və azadolmaları ilə bağlıdır.

Müzakirənizə təqdim edilən Qanun layihələri əsasən aşağıdakı istiqamətləri əhatə edir:

**1. Vergi yükünün azaldılması və pərakəndə ticarət fəaliyyətində ƏDV-nin ticarət əlavəsindən hesablanması**

Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən torpaq vergisi istisna olmaqla, Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilmişdir. Həmin məhsullar ticarət şəbəkələri tərəfindən pərakəndə qaydada satılarkən digər məhsulların satışı kimi bu məhsulların da tam dəyəri ümumi qaydada ƏDV-yə cəlb edilir. Qüvvədə olan qanunvericiliyə uyğun olaraq ƏDV tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği əsasında müəyyən edilir. Vergi Məcəlləsində ƏDV tutulan əməliyyatın dəyərinin müəyyən edilməsinin başqa qaydası nəzərdə tutulmadığından ticarət şəbəkələri satış üzrə ümumi dövriyyədən ƏDV hesablamalı olurlar ki, bu da pərakəndə satış qiymətində bahalaşmaya səbəb olur.

Qeyd edilənlər nəzərə alınaraq, kiçik və orta sahibkarlığı stimullaşdırmaq, pərakəndə ticarətdə rəqabət mühitini təmin etmək və vergi yükünü optimallaşdırmaq məqsədilə pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan sahibkarlar tərəfindən Azərbaycan Respublikasında istehsal edilmiş ***kənd təsərrüfatı məhsullarının satışı zamanı*** ƏDV-nin həmin məhsulların ***satış qiyməti ilə onların alış qiyməti arasındakı fərqdən, yəni ticarət əlavəsindən hesablanması*** ilə bağlı müddəalar Layihəyə daxil edilmişdir.

Eyni zamanda, layihə ilə ödəmə qabiliyyətini itirmiş bankların restrukturizasiya və sağlamlaşdırma tədbirləri çərçivəsində *qeyri-işlək (toksik) aktivlərinin* təqdim edilməsinin ***2017-ci il yanvarın 1-dən 3 il müddətinə ƏDV-dən azad edilməsi*** nəzərdə tutulur.

Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidentinin Fərman və Sərəncamları ilə yaradılan icbari tibbi sığorta və səhiyyə (tibb) xidmətləri göstərən qurumların gəlirlərinin ***mənfəət vergisindən müddətsiz***, buğdanın idxalının və satışının, buğda ununun və çörəyin istehsalının və satışının, quş ətinin satışının isə ***3 il müddətində ƏDV-dən azad edilməsi*** ilə bağlı müddəalar Layihəyə daxil edilmişdir.

Banklar tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirlərinin, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividendin, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirlərinin ***gəlir vergisindən azad edilməsi müddəti 5 ilə qədər***, yəni 2021-ci ilin fevral ayınadək artırılmışdır.

Sahibkarların vergi yükünün azaldılması ilə yanaşı onların dövriyyə vəsaitlərinə qənaət edilməsi, habelə ixracı stimullaşdırmaq məqsədilə ixrac fəaliyyəti ilə məşğul olan şəxslərin apardıqları əməliyyatlardan yaranan ƏDV üzrə artıq ödənilmiş vergilərin onların müraciətindən sonra ***qaytarılması müddətinin 45 gündən 20 günə endirilməsini*** əks etdirən düzəlişlər, habelə ƏDV tutulan əməliyyatlar aparan digər şəxslər üzrə yaranmış artıq ödəmələr digər vergi öhdəlikləri ilə ***3 ay müddətində əvəzləndikdən sonra qalan***

***məbləğin 20 gün müddətində qaytarılmasına dair müddəalar*** da layihəyə daxil edilmişdir.

Qeyd olunan dəyişikliklər vergi ödəyicilərinin *vergi yükünün azaldılmasına, onların dövriyyə vəsaitlərindən səmərəli istifadə etmələrinə şərait yaradacaqdır*.

2. Topdan və pərakəndə ticarətlə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarların müəyyən edilməsi

Sərəncamla verilmiş pərakəndə ticarət sahəsində ƏDV-nin ticarət əlavəsindən hesablanması, elektron qaimə-fakturanın tətbiqi kimi tapşırıqlar topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərinin dairəsinin müəyyənləşdirilməsini özündə ehtiva etməkdədir.

Burada onu qeyd etmək yerinə düşər ki, mövcud vəziyyət üzrə hal-hazırda topdansatış fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən malların təqdim edilməsi zamanı əksər hallarda ciddi hesabat blanklarından istifadə edilməməkdədir. Bu da həmin vergi ödəyicilərinin və onların qarşılıqlı təsərrüfat əqdləri bağladıqları digər şəxslər tərəfindən uçotun düzgün aparılmasında müəyyən çətinliklər yaradır. Bu səbəbdən, ***topdan və pərakəndə ticarət fəaliyyəti ilə məşğul olan vergi ödəyicilərini fərqləndirən meyarları*** nəzərdə tutan anlayışların layihəyə daxil edilməsi aparılmış islahat tədbirləri çərçivəsində öz əksini tapmışdır. Layihəyə əsasən, topdansatış malların alıcıya onun **sahibkarlıq fəaliyyəti məqsədləri üçün və qaimə-faktura** tətbiq edilməklə həyata keçirdiyi ticarət fəaliyyətidir. Pərakəndə satış isə malların alıcıya **son istehlak məqsədilə və yalnız qəbz və ya nəzarət-kassa aparatının çeki** (sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə onların tələbi ilə qaimə-faktura və ya elektron-qaimə faktura və ya elektron vergi hesab-fakturası) təqdim edilməklə satışının həyata keçirildiyi ticarət fəaliyyətidir.

Bu dəyişikliklər *vergi ödəyiciləri ilə vergi orqanları arasında yarana biləcək fikir ayrılıqlarının qarşısının alınmasına və onların maliyyə sanksiyalara məruz qalmamalarına şərait yaradacaq*.

**3. Elektron qaimə-fakturanın tətbiqi**

Ölkəmizdə mal, iş və xidmətlər üzrə əməliyyatların rəsmiləşdirilməsi sahəsində mövcud vəziyyətin təhlili göstərir ki, qaimə-fakturaların kağız formasında tətbiqi bir sıra problemlərə və nəticə etibarı ilə vergidən yayınma hallarına şərait yaradır.

Bunun qarşısının alınması məqsədilə layihəyə sahibkarlıq fəaliyyəti subyektləri arasında malların, işlərin və xidmətlərin təqdim edilməsi ilə bağlı elektron qaimə-fakturanın təqdim olunması barədə müddəalar daxil edilmişdir. Eyni zamanda malların alışını təsdiq edən qaimə-faktura, elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturası olmadıqda alıcıya təqvim ili ərzində belə hala birinci dəfə yol verdiyinə görə ***alınmış malların 10 faizi, ikinci dəfə yol verdiyinə görə 20 faizi, üç və daha çox dəfə yol verdiyinə görə 40 faizi miqdarında maliyyə sanksiyasının*** tətbiq olunmasını nəzərdə tutan maddə əlavə edilmişdir.

Qanun layihəsinə ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən

sahibkarlıq fəaliyyəti ilə əlaqədar təqdim edilmiş (yola salınmış) mallara, görülmüş işlərə və göstərilmiş xidmətlərə görə *1 aprel 2017-ci il tarixdən*, bütün digər vergi ödəyiciləri tərəfindən isə *1 yanvar 2018-ci il tarixdən* malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara (malların, işlərin, xidmətlərin sifarişçisinə) elektron qaimə-faktura təqdim edilməsi ilə bağlı keçid müddəa daxil edilmişdir.

Bu dəyişiklik *sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşməsi prosedurunun sadələşməsinə, operativliyinin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcək vergi nəzarəti tədbirləri zamanı vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmin edilməsinə* xidmət edir.

**4. Vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi**

Sahibkarlar tərəfindən vergi öhdəliklərinin hər hansı səbəbdən düzgün müəyyən edilməməsi vergi ödəyicilərinin əlavə maliyyə sanksiyalarına məruz qalması ilə nəticələnir. Belə halların qarşısının alınması məqsədi ilə vergi ödəyiciləri tərəfindən aparılması planlaşdırılan əməliyyatlar üzrə yaranacaq vergi öhdəliklərinin əvvəlcədən müəyyən edilməsi mexanizminin hazırlanması vacibdir. Bu mexanizm əsasən **iri məbləğli müqavilələr üzrə yaranacaq vergi öhdəliklərinin həmin müqavilədə nəzərdə tutulmuş əməliyyatlar aparılanadək müəyyən edilməsini** özündə ehtiva edir. Bu da həmin ***vergi ödəyicilərinə sonradan əlavə vergilərin hesablanmaması və maliyyə sanksiyalarının tətbiq edilməməsi*** ilə nəticələnəcəkdir.

Bu məqsədlə, vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması qaydasının müəyyən edilməsi ilə bağlı Layihəyə müvafiq müddəalar daxil edilmişdir. Hər bir belə əməliyyatın dəyəri 10 milyon manatdan az olmamalıdır və bununla bağlı qərarın qəbul edilməsi üçün dövlət rüsumu ödənilməlidir. Bu məsələ ilə əlaqədar olaraq "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununun layihəsi hazırlanmışdır.

Vergi öhdəliyinin əvvəlcədən müəyyənləşdirilməsi barədə qərarın qəbul edilməsinə görə ***500 manat məbləğində dövlət rüsumu*** müəyyən edilməsi nəzərdə tutulur.

Məlumat üçün qey etmək yerinə düşər ki, bu mexanizm Avstriya, Belçika, Kanada, Çexiya Respublikası, Danimarka, Estoniya, Finlandiya, Fransa, Almaniya, Macarıstan, İsrail, İtaliya, Yaponiya, Niderland, İspaniya, Türkiyə, Böyük Britaniya, ABŞ və s. ölkələrin qanunvericiliyində də təsbit edilməkdədir.

**5. Kameral vergi yoxlamalarının 30 gün müddətində başa çatdırılması**

Qüvvədə olan qanunvericiliyə görə kameral vergi yoxlaması vergi ödəyicisi tərəfindən verginin hesablanması və ödənilməsi üçün əsas olan sənədlərin vergi orqanına təqdim edildiyi gündən 30 gün müddətində keçirilir. Vergi ödəyiciləri tərəfindən müvafiq sənədlərin vaxtında təqdim edilməməsi və ya ümumiyyətlə sənədləşmənin aparılmaması bəzən kameral qaydada keçirilən vergi yoxlamalarının müddətinin uzadılması ilə nəticələnir. Belə halların aradan qaldırılması məqsədilə kameral vergi yoxlamalarının konkret olaraq verilmiş bəyannamələr əsasında ***30 gün ərzində başa***

***çatdırılması*** qarşıya qoyulan məqsəd xarateri daşımaqdadır.

Bu məqsədlə, kameral vergi yoxlamasının vergi bəyannaməsinin təqdim edildiyi vaxtdan 30 iş günü müddətində həyata keçirilməsini və bu müddət başa çatdıqdan sonra həmin bəyannamə üzrə yenidən kameral vergi yoxlamasının keçirilməsini qadağan edən müddəalar Layihəyə daxil edilmişdir.

Məlumat üçün qeyd etmək yerinə düşər ki, Sərəncamın icrasından irəli gələrək vergi orqanlarında ***risklərin avtomatlaşdırılmış qaydada emalı sisteminin tətbiqinə*** başlanılmışdır ki, bu da bəyannamələrin 30 gün müddətində kameral qaydada yoxlanılmasına imkan verəcəkdir.

Vergi ödəyicisi tərəfindən bəyannamə təqdim edildiyi tarixdən 30 gün sonra vergi orqanları tərəfindən aşkar olunmuş hər hansı uyğunsuzluq barədə vergi ödəyicisində kameral yoxlama keçirilmədən ona həmin uyğunsuzluq barədə 5 iş günü ərzində bildirişin göndərilməsi də ***vergi ödəyicilərinin hüquqlarının qorunmasına xidmət edir***.

**6. K**önüllü vergi açıqlaması sisteminin tətbiqi

Məlum olduğu kimi, vergi ödəyicilərində aparılan səyyar vergi yoxlamalarının başa çatmasına baxmayaraq vergi orqanının əldə etdiyi mənbəyi bəlli olan hər hansı məlumat əsasında vergi ödəyicisinin gəlirlərinin və ya vergitutma obyektinin gizlədilməsinin (azaldılmasının) əlamətləri müəyyən edildikdə vergi qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda növbədənkənar vergi yoxlaması keçirilə bilər. Bu zaman keçirilən vergi yoxlaması ilə büdcədən yayındırılmış vergi məbləğləri dövlət büdcəsinə bərpa edilməklə, həmin yayındırılmış məbləğə ***50 faiz miqdarında maliyyə sanksiyası*** tətbiq edilir. ***Məcəlləyə təklif edilən könüllü vergi açıqlaması ilə bağlı müddəaların tətbiqi vergi ödəyicilərini belə sanksiyalardan azad edəcəkdir***.

Könüllü vergi açıqlaması vergi orqanı tərəfindən keçirilən səyyar vergi yoxlaması başa çatdıqdan sonra yoxlama ilə aşkar olunmamış səhvlərin, o cümlədən vergi məbləğlərinin düzgün hesablanmaması hallarının vergi ödəyicisi tərəfindən könüllü olaraq bəyan edilməsini nəzərdə tutur. Bununla bağlı Vergi Məcəlləsinə müvafiq dəyişikliklər təklif edilir ki, bu da vergi ödəyicisinə könüllü vergi açıqlaması barədə səyyar vergi yoxlamasının əhatə etdiyi dövrlərə görə bəyannamə verilməsi hüququnu verir. Həmin bəyannamə ilə könüllü açıqlanmış vergi məbləğlərinə görə ***vergi ödəyicisinə faiz hesablanmır*** və maliyyə ***sanksiyası*** tə***tbiq edilmir***.

Məlumat üçün qeyd etmək lazımdır ki, analoji müddəalar ABŞ, əksər avropa ölkələrinin, qardaş Türkiyənin qanunvericiliyində öz əksini tapmaqdadır.

**7. Nağdsız hesablaşmalar haqqında**

Sərəncama uyğun olaraqç eyni zamanda "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsi hazırlanmışdır. Həmin Qanunla nağdsız hesablaşmaların anlayışı verilmiş, ƏDV məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında 200 min manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən hesablaşmaların nağd qaydada aparılması ay ərzində **30 min** manatadək, digər vergi ödəyiciləri tərəfindən isə ay ərzində **15 min**

manatadək məhdudlaşdırılmışdır.

Bunlarla yanaşı, inzibati cərimələrin, maliyyə sanksiyalarının, vergilərin, gömrük rüsumlarının, yığımların, faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi, sığorta ödənişlərinin, dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqlarının və digər yığımların, pensiya, təqaüd, maddi yardım, müavinətlərin, kompensasiyaların və təzminatların, stasionar telefon xidmətləri və kommunal xərclərin, vergi ödəyicilərinə faizsiz pul vəsaitlərinin və digər ayırmaların ödənilməsi və qaytarılması, dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsinin, təhsil haqlarının ödənilməsinin və turagentlərə ödənişlərin aparılmasının nağdsız qaydada həyata keçirilməsinə dair tələblər müəyyən edilmişdir.

Eyni zamanda əməliyyatlarının həcmi ardıcıl ***12 aylıq dövrün istənilən ayında (aylarında) 200*** min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əmək haqlarının da nağdsız qay***dada həyata keçirilməsi*** nəzərdə tutulmuşdur.

Həmin Qanunun tələblərinin pozulmasına görə təqvim ili ərzində belə hala ***birinci dəfə yol verdikdə aparılan əməliyyatların 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə 40 faizi miqdarında maliyyə sanksiyasının tətbiq edilməsi*** ilə bağlı Vergi Məcəlləsinə müvafiq maddə daxil edilmişdir.

Qeyd edilənlərlə yanaşı banklardan nağd pul vəsaitlərinin çıxarılmasının məhdudlaşdırılması məqsədilə Vergi Məcəlləsinin layihəsinə hüquqi şəxslər və fərdi sahibkarlar tərəfindən pul vəsaitlərinin nağd qaydada bank hesablarından çıxarılmasına görə banklar və poçt rabitəsinin milli operatorları tərəfindən 1 faiz dərəcəsi ilə sadələşdirilmiş verginin tutulmasına dair müddəa da daxil edilmişdir.

Nağd ödənişlərin məhdudlaşdırılması dünyanın əksər ölkələrinin, o cümlədən Fransa, İtaliya, İspaniya, Belçika, Çexiya, Slovakiya, Qazaxıstan və sair dövlətlərin qanunvericiliyində nəzərdə tutulmuşdur.

Bu dəyişikliklər bütövlükdə ölkədə ***nağdsız əməliyyatların həcminin artmasına, bankların maliyyə vəziyyətinin yaxşılaşmasına, onların likvidliyinin təmin edilməsinə, pul dövriyyəsinin tənzimlənməsinə, büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın təmin edilməsinə, əmək haqqlarının və digər ödənişlərin leqallaşmasına və nəticədə ölkənin beynəlxalq reytinqinin daha da artırılmasına*** şərait yaradacaqdır.

**8. Xərclərin süni şəkildə artırılması (transfer qiymətləndirmə) hallarının aradan qaldırılması**

Vergi Məcəlləsinin 14-cü maddəsi vergitutma məqsədləri üçün tərəflər arasında aparılan əməliyyatda malların (işlərin, xidmətlərin) bazar qiymətinin müəyyən edilməsini tənzimləyir. Bu maddənin mövcud redaksiyası rezident vergi ödəyicisinin ölkə hüdudlarından kənarda təsis edilmiş vergi ödəyiciləri ilə apardıqları əməliyyatlarda gəlir və xərclərinin düzgün bölüşdürülməsinə nəzarət etməyə imkan vermir. Belə halların qarşısının alınması məqsədilə ölkə hüdudlarından kənarda, o cümlədən vergi sığınacağı (ofşor) hesab edilən dövlətlərdə və ya ərazilərdə, təsis edilmiş şəxslərlə həyata

keçirilən əməliyyatlar üzrə əldə edilən gəlirlərin transfer qiymətləri tətbiq edilməklə vergiyə cəlb edilməsi üçün Layihəyə müvafiq maddələr daxil edilmişdir.

Layihədə transfer qiymətlərinin təqvim ili ərzində yuxarıda qeyd edilən hər bir şəxs üzrə ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara tətbiq edilməsi nəzərdə tutulmuşdur.

Qanun layihəsinə bu istiqamətdə dəyişiklik hazırlanarkən, İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının (OECD-nin) tövsiyyələri öyrənilmiş, beynəlxalq ekspertlərin rəyləri nəzərə alınmışdır. Transfer qiymətqoyma Avropa İttifaqına daxil olan ölkələrdə, Amerika Birləşmiş Ştatlarında və s. dövlətlərdə tətbiq olunur.

**9. Fiziki şəxslərin vergi öhdəliklərinin aylıq sabit vergi** şəklində müəyyən edilməsi

Bu dəyişikliyə əsasən bəzi fəaliyyət növləri ilə məşğul olan fiziki şəxslər tərəfindən vergi öhdəliklərinin ***sabit məbləğdə sadələşdirilmiş qaydada vergi ödəməklə yerinə yetirilməsi qaydası*** müəyyən edilmişdir. Sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz alınmaqla fəaliyyət göstərilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir və Məcəlləyə həmin fəaliyyət növlərinin siyahısı və verginin dərəcəsi daxil edilmişdir.

Belə fəaliyyət növlərinə toylarda, şənliklərdə və digər tədbirlərdə aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, fərdi foto, audio-video xidmətləri, məişət cihazlarının təmiri, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban və s. fərdi xidmətlər aid edilmişdir.

Dəyişikliklərə əsasən vergi öhdəliklərini sadələşdirilmiş vergi üzrə sabit məbləğin ödənilməsi haqqında qəbz alınmaqla yerinə yetirən şəxslər vergi orqanına bəyannamə təqdim etmirlər.

Bu dəyişikliklər fərdi qaydada fəaliyyət göstərən ***aşağı gəlirli fiziki şəxslərin vergi və inzibati yükünün azaldılmasına xidmət edir***.

**10. Rəqəmsal iqtisadiyyatın (e-ticarət) vergiyə cəlb edilməsi**

Sərəncamın icrası ilə bağlı hazırlanan qanun layihələrinədən biri də “Elektron ticarət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklərin edilməsi haqqındadır. Həmin Qanun layihəsi ***elektron ticarətin əhatə dairəsinin genişləndirilməsini***, elektron ticarətin əsas iştirakçılarından olan kart təşkilatının, təcrübədə geniş tətbiq edilən ***pul kisəsi anlayışını***, habelə elektron ticarətin iştirakçısı olan ***satıcıya dair tələbləri*** müəyyən edən normaları özündə ehtiva edir.

Vergi Məcəlləsinə də rəqəmsal iqtisadiyyat çərçivəsində aparılan əməliyyatların vergiyə cəlb edilməsinin işlək mexanizmini müəyyən edən müddəaların əlavə edilməsi nəzərdə tutulur.

Layihəyə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə, habelə ***elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin keçirilməsinə görə ƏDV-nin al***ıcısının olduğu yerdə vergiyə cəlb edilməsi ilə bağlı müddəa da daxil edilmişdir.

Həmin müddəalara əsasən vergi orqanlarında uçotda olmayan şəxslər tərəfindən ödənişlər aparılarkən yerli bank, xarici bankın Azərbaycan Respublikasındakı filialları və

ya poçt rabitəsinin milli operatoru tərəfindən ***qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV hesablanmalı, alıcının vəsaiti hesabına tutulmalı və büdcəyə ödənilməlidir***.

Beləliklə qeyd edilən dəyişikliklə elektron ticarət aparan vergi ödəyicilərinə şəffaf vergi nəzarətinin təmin edilməsinə, rezident və qeyri-rezident elektron ticarət iştirakçıları arasında diskriminasiyanın aradan qaldırılmasına nail olunacaqdır.

**11. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə sərhədlərin müəyyən edilməsi**

Məlum olduğu kimi, kənd təsərrüfatı məhsullarının istehsalçıları 1999-cu ildən torpaq vergisi istisna olmaqla, Vergi Məcəlləsi ilə müəyyən edilmiş digər vergilərin ödənilməsindən azad edilmişdir. Qeyd etmək lazımdır ki, bu güzəştlər kənd təsərrüfatı məhsullarının birbaşa istehsalı ilə məşğul olan şəxslərə tətbiq edilir. Bu sahələrdə ***yaranan fikir ayrılığı və mübahisələrin aradan qaldırılması üçün*** kənd təsərrüfatı məhsullarının istehsalçılarına tətbiq edilən ***vergi güzəştlərinin əhatə dairəsini dəqiq müəyyənləşdirmək məqsədilə*** kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə sərhədlərin müəyyən edilməsinə zərurət yarandığından kənd təsərrüfatı məhsullarının istehsalının və satışının anlayışı Layihəyə daxil edilmişdir.

Sənaye üsulu (o cümlədən xüsusi broyler təsərrüfatları, avtomatlaşdırılmış tövlə sistemləri və digər yerlər) da daxil olmaqla, heyvanların və quşların yetişdirilməsi, bəslənməsi, diri şəkildə olarkən onlardan məhsulların (ilkin formada, yarımfabrikat kimi istifadə olunaraq yeni məhsula çevrilmədən, kimyəvi tərkibi dəyişdirilmədən, konservləşdirilmədən) əldə edilməsi, bitkiçilik məhsullarının becərilməsi ***kənd təsərrüfatı məhsullarının istehsalı anlayışın***a aid edilmişdir.

İstehsal olunan (o cümlədən sənaye üsulu ilə, xüsusi broyler təsərrüfatlarında, avtomatlaşdırılmış tövlə sistemlərində və digər yerlərdə) canlıların diri şəkildə, habelə onlardan diri şəkildə olarkən əldə edilmiş məhsulların ilkin formada, heç bir kimyəvi təsirə məruz qalmadan təqdim edilməsi və bitkiçilik məhsullarının və digər kənd təsərrüfatı məhsullarının təqdim edilərkən təbiətdə olduğu ilkin formasını saxlaması, kimyəvi tərkibinin dəyişdirilməməsi, konservləşdirilməməsi ***kənd təsərrüfatı məhsullarının satışına*** aid edilmişdir.

**12. Vergi qanunvericiliyində hüquqlardan sui-istifadə əleyhinə müddəaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması**

Bəzi vergi ödəyiciləri vergi qanunvericiliyi ilə verilmiş hüquqlardan sui-istifadə edərək müxtəlif sxemlər tətbiq etməklə vergidən yayınırlar.

Çoxpilləli müqavilələr bağlamaqla xərclərin bir vergi ödəyicisindən digərinə ötürülməsi yolu ilə şişirdilərək vergi öhdəliklərinin azaldılmasını belə sxemlərə nümunə kimi göstərmək olar.

Beynəlxalq təcrübə nəzərə alınmaqla belə ***vergi ödəyicilərinin vergitutma obyektlərini şəffaf şəkildə vergiyə cəlb etmək və vergitutma bazasının gizlədilməsinin qarşısını almaq məqsədilə*** hüquqlardan sui-istifadə əleyhinə müddəaların vergi qanunvericiliyinə daxil edilməsi nəzərdə tutulur. Bu təcrübə Fransa, Almaniya, Hollandiya, Belçika və digər ölkələrdə tətbiq olunur. Bu məqsədlə vergi orqanı tərəfindən vergidən yayınma sxeminin

tətbiqi halları aşkar edildikdə, onlara faktiki iqtisadi mahiyyət üzrə qanunla müəyyən edilmiş qaydada vergiləri hesablamaq hüququnu özündə əks etdirən müddəalar Layihəyə daxil edilmişdir.

**13. Güzəştli vergitutulan ölkələrdə aparılan əməliyyatlara vergi nəzarəti mexanizminin qurulması**

Sərəncama uyğun olaraq, Azərbaycan Respublikası rezidentlərinin güzəştli vergitutulan ölkələrdə və ya ərazilərdə (ofşor zonalarda) yaradılmış müəssisələrlə əməliyyatlarına səmərəli nəzarət mexanizmlərinin qurulması da islahat tədbirləri arasında öz əksini tapmışdır. Bu mexanizmlərin tətbiqində məqsəd ofşorlarda yaradılmış müəssisələr vasitəsilə müxtəlif sxemlərdən istifadə edərək gəlir və mənfəətlərini Azərbaycan Respublikasında vergidən yayındıran şəxslərin müəyyənləşdirilməsi və həmin əməliyyatların qanunvericiliyə müvafiq qaydada vergiyə cəlb edilməsini təmin etməkdən ibarətdir.

Bu məqsədlə Layihəyə güzəştli vergi tutulan ölkələrdə təsis edilmiş (qeydiyyatdan keçmiş) subyektlərə rezidentlər və qeyri-rezidentlərin Azərbaycan Respublikasındakı daimi nümayəndəlikləri tərəfindən birbaşa və ya dolayısı ilə edilən ödənişlərin ***Azərbaycan mənbəyindən gəlirlərə aid edilməsini və həmin ödənişlərdən ödəmə mənbəyində 10 faiz dərəcə ilə verginin tutulmasını nəzərdə tutan müddəalar*** daxil edilmişdir.

Bu dəyişiklik beynəlxalq təcrübədə tətbiq olunan, vergi sığınacaqlarına köçürülərək vergidən yayındırılan gəlirlərlə mübarizə sahəsində atılan addımlardan biridir. Analoji müddəalar Latviya, Estoniya, Qazaxıstan və Gürcüstan kimi öklərin qanunvericiliyində nəzərdə tutulmuşdur.

**14. Elektron auditin tətbiqi dairəsinin genişləndirilməsi**

Məlum olduğu kimi, dövlət vergi siyasətinin əsas hədəflərindən biri sahibkarlarla vergi orqanı arasında birbaşa təmasın minimuma endirilməsi və əlaqələrin elektron qaydada həyata keçirilməsindən ibarətdir.

Bununla əlaqədar Vergi Məcəlləsinə elektron auditin vergi ödəyicisinin elektron formatda saxlanılan maliyyə (mühasibat) məlumatlarına xüsusi proqram təminatı vasitəsilə birbaşa və ya məsafədən çıxış imkanı yaradılmaqla həyata keçirilən vergi yoxlaması olması barədə anlayış və elektron auditin vergi orqanının qərarına əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada aparılması ilə bağlı müddəalar daxil edilmişdir.

**15. Vergi sahəsində şəffaflıq və məlumat mübadiləsi üzrə yüksək beynəlxalq reytinq əldə etmək və bu reytinqin daima saxlanılması**

Məlum olduğu kimi, Azərbaycan Respublikası 2003-cü il tarixdən "Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında" Konvensiya qoşulmuşdur. Həmin Konvensiya ölkələrə vergi sahəsində yardımın, habelə vergi ödəyicilərinin gəlirləri barədə avtomatik məlumat mübadiləsini nəzərdə tutur.

Bundan əlavə, Amerika Birləşmiş Ştatlarının Hökuməti ilə Azərbaycan Respublikası Hökuməti arasında vergi tələblərinin yerinə yetirilməsi barədə müvafiq Saziş imzalanmışdır.

Qeyd olunan Sazişə əsasən tərəflərin vergi ödəyicilərinin bank hesablarının, həmin hesablardakı əməliyyatlar barədə məlumatların

mübadiləsi həyata keçirilir.

Beynəlxalq sazişlərdən irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə ***maliyyə institutlarının, o cümlədən bankların hüquq və vəzifələrini və onların bu məsələlərlə bağlı məsuliyyətini nəzərdə tutan müddəalar*** Vergi Məcəlləsinə daxil edilmişdir.

Məlumat üçün qeyd etmək yerinə düşər ki, cari ilin sentyabr ayında Qlobal Forumun Qiymətləndirmə Qrupunun Paris şəhərində keçirilən iclası zamanı Azərbaycan üzrə ölkə hesabatı müzakirəyə çıxarılmış və Qiymətləndirmə Qrupunun qərarı ilə təsdiqlənərək, Azərbaycan Respublikası "əsasən uyğun" (largely compliant) reytinq balı ilə qiymətləndirilmişdir. Bu reytinq 28 oktyabr 2016-cı il tarixində Qlobal Forum tərəfindən təsdiqlənərək, Qlobal Forumun və OECD-nin rəsmi veb-saytlarında dərc edilmişdir.

**16. Torpaq sahələrinin satışı əməliyyatlarının rəsmiləşdirilməsi zamanı bu əməliyyatdan yaranan vergi öhdəliyinin notarius tərəfindən ödəmə mənbəyində sadələşdirilmiş vergiyə cəlb edilməsi:**

Məlum olduğu kimi, qüvvədə olan qanunvericiliyə əsasən torpaq sahələrinin satışı ümumi qaydada mənfəət və gəlir vergisinə cəlb edilir. Bu əməliyyatların rəsmiləşdirilməsi zamanı qiymətlərin düzgün göstərilməməsi, alış və xərc sənədlərinin olmaması bu torpaqları təqdim edən şəxsin vergi öhdəliyinin dəqiq müəyyən edilməsində çətinliklər yaradır. Bu məqsədlə, ***torpaq sahələrinin sadələşdirilmiş qaydada vergiyə cəlb edilməsini nəzərdə tutan müddəalar*** Layihəyə daxil edilmişdir.

**17. Vergi borcunun alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi:**

***"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda*** dəyişiklik edilməsinə dair qanun layihəsi üzrə icra məmurları tərəfindən icraata qəbul edilən vergi borclarının, habelə geri qaytarılan icra sənədlərinin daima nəzarətdə saxlanılması, icra məmurlarına vergi borclarının alınması ilə bağlı mümkün köməkliyin edilməsi, habelə bu sahədə düzgün uçotun qurulması məqsədilə vergi borcunun alınması (vergilərin ödənilməməsi) ilə əlaqədar qanuni qüvvəyə minmiş məhkəmə qərarlarına münasibətdə icra məmurlarının icraata başlamaq haqqında qərarın surətinin və icra edilməsi mümkün olmadığı üçün geri qaytarılan icra sənədləri barədə məlumatların rəsmi şəkildə aidiyyəti vergi orqanına təqdim etmələri ilə bağlı müddəalar nəzərdə tutulmuşdur. Həmin qanun layihəsinə, icra məmurları tərəfindən dəyəri ***5000 manatadək olan əmlakların ticarət şəbəkələrində, o cümlədən elektron ticarət*** şəbəkələrində satışına dair müddəalar da əlavə edilmişdir.

"İcra haqqında" Azərbaycan Respublikasının Qanununda qeyd edilən istiqamətdə müvafiq dəyişikliklər edildiyi təqdirdə qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrasının tez bir zamanda təmin edilməsi, habelə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən vergilərin vaxtında və tam məbləğdə yığılması və dövlət büdcəsinə ödənilməsinin təmin edilməsi üçün daha əlverişli şərait yaranacaqdır.

***Mülki-Prosessual Məcəlləyə*** təklif olunan dəyişiklik isə Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğunlaşma xarakteri daşıyır. Məhkəmə Vergi Məcəlləsinin 90.1-ci maddəsində göstərilən vergi orqanının müraciətinə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində müəyyən edilmiş

qaydada baxır.

Vergi borclarının dövlət büdcəsinə alınmasının tamhəcmdəvəoperativtəminedilməsiməqsədilə Vergi Məcəlləsinə dəyişiklik layihəsində bir sıra yeniliklər nəzərdə tutulmuşdur. Bu dəyişikliklər məhkəmə qərarlarının icrası prosesinin daha sadə və operativ şəkildə həyata keçirilməsini təmin edəcəkdir.

**18. Vergitutma bazasının genişləndirilməsi ilə bağlı müddəalar:**

Məlumat üçün onu da qeyd etmək yerinə düşər ki, Vergi Məcəlləsinə dəyişikliklər edilməsi haqqında Qanunun Layihəsinə vergitutma bazasının genişləndirilməsi ilə bağlı bir sıra müddəalar daxil edilmişdir.

***Bu dəyişikliklər əsasən:***

- idxal edilən istirahət və ya idman üçün yaxtalara və bu məqsədlər üçün nəzərdə tutulan digər üzən vasitələrə, mühərrikinin həcmi 2000 kub santimetrdən yuxarı olan minik avtomobillərinə, platinin və qızılın hər qramına, almazın 1 karatına tətbiq edilən aksiz dərəcələrinin təqribən 2 -3 dəfə artırılmasını;

- idxal edilən xəz-dəri mallarının aksizli mallara aid edilməklə 10 faiz dərəcə ilə aksizə cəlb edilməsini;

- sadələşdirilmiş verginin ödəyicisi olan hüquqi şəxslərin əmlak vergisinə cəlb edilməsini;

- maşınlar və avadanlıq üzrə amortizasiya normasının 25 faizdən 20 faizədək azaldılmasını;

- dövlət büdcəsinin investisiya xərcləri hesabına alınan aktivlərə hesablanmış amortizasiyanın gəlirdən çıxılmasının 40 faizədək məhdudlaşdırılmasını nəzərdə tutur.

Vergi Məcəlləsinə təklif edilən yuxarıda sadalanan dəyişikliklər ölkədə aparılan iqtisadi islahatların tərkib hissəsi kimi həyata keçirilməsi nəzərdə tutulmaqdadır.




# QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Strateji Yol Xəritəsində nəzərdə tutulmuş tədbirlərin effektiv şəkildə həyata keçirilməsi prosesinin tərkib hissələrindən biri kimi, Qida Təhlükəsizliyi Agentliyinin yaradılması Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasında əhəmiyyətli rol oynayacaqdır.

Azərbaycan Respublikasının qida təhlükəsizliyinin **təmin edilməsi sistemi beynəlxalq tələblərdən və qabaqcıl təcrübələrdən əhəmiyyətli dərəcədə fərqlənir və qida məhsullarının** təhlükəsizliyini tam **şəkildə təmin edə bilmir. Qida** təhlükəsizliyinin **təminatı sisteminin Avropa İttifaqının və müvafiq beynəlxalq təşkilatların tələblərinə** uyğunlaşdırılması **və məhsulların** təhlükəsizliyinin **və keyfiyyətinin yüksəldilməsi**, qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətindəki paralelliyin aradan qaldırılmasını **zə**ruri etməkdədir.

Belə ki, hazırda sertifikatlaşdırılmış məhsul istehsalının standartların tələblərinə uyğunluğuna nəzarəti Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, bazarda məhsulların standartların tələblərinə uyğunluğuna nəzarəti isə İqtisadiyyat Nazirliyi həyata keçirir. Eyni zamanda, yeyinti məhsullarına istehsal səviyyəsində də bir çox dövlət orqanı nəzarət etməkdədir. Bitki və bitki məhsullarına Dövlət Fitosanitar Nəzarəti Xidməti, diri heyvanlara və heyvan məhsullarına Dövlət Baytarlıq Nəzarəti Xidməti nəzarət edir. Həmçinin, istehsala girən xammala və istehsal prosesinə nəzarət Səhiyyə Nazirliyi və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən həyata keçirilməkdədir. Məhsul bazara daxil olandan sonra isə ona nəzarət prosesini əsasən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar siyasəti və istehlakçıların hüquqlarının qorunması üzrə Dövlət xidməti təmin edir. Eyni zamanda, Səhiyyə Nazirliyi də yeyinti məhsullarına bazarda nəzarəti həyata keçirir.

Buradan da aydın olur ki, Azərbaycanda qida təhlükəsizliyinin **təmin edilməsi sistemi müasir tələblərə tam cavab vermir və bu sahədə** təkrarlanmalar mövcudddur. Xüsusən də qida təhlükəsizliyinə dair standartlar, sanitar və fitosanitar norma və qaydaların əksəriyyəti Sovet İttifaqı dövründə hazırlanmışdır və beynəlxalq tələblərə uyğun olaraq təkmilləşdirilməsinə ehtiyac yaranmışdır. Əsas məqamlardan biri də ixrac-idxal əməliyyatları zamanı məhsulların təftiş edilməsi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlıdır. Xüsusilə də, məhsulların təftişi prosedurlarının Ümumdünya Ticarət Təşkilatının (ÜTT) tələblərinə uyğunlaşdırılmasına ehtiyac vardır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilən «Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi»ndə də qida təhlükəsizliyinə nəzarət sahəsində müxtəlif orqanların fəaliyyətində paralelliyin aradan qaldırılması və effektiv tənzimləmə sisteminin qurulması nəzərdə tutulurdu. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli “Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsinə **böyük töhfə verəcəyi gözləniləndir**.

Qida Təhlükəsizliyi Agentliyi 2018-ci il yanvarın 1-dən etibarən aşağıdakı fəaliyyətlərin həyata keçirilməsini təmin edəcək:

1. Azərbaycan Respublikasında qida

məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləmə (sanitariya normaları və qaydalarının, habelə gigiyena normativlərinin hazırlanması və təsdiqi) və risklərin təhlili;

2. qanunla müəyyən edilmiş qaydada gigiyenik sertifikatlaşdırma işinin aparılması, o cümlədən xarici ölkələrə ixrac edilən qida məhsullarına keyfiyyət sertifikatının verilməsi;

3. habelə qida məhsulları istehlakçılarının hüquqlarının müdafiəsi sahəsində və "tarladan süfrəyədək" prinsipi əsasında məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq qida məhsulları istehsalının bütün mərhələlərində dövlət nəzarətinin həyata keçirilməsi.

Burada onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən agentliyin fəaliyyətini təmin etmək məqsədilə eyni zamanda Baş nazirinin müavini Əli Əhmədovun sədrliyi ilə Qida Təhlükəsizliyi Komissiyası yaradılmışdır. Azərbaycan Respublikasının iqtisadiyyat naziri, Azərbaycan Respublikasının maliyyə naziri, Azərbaycan Respublikasının səhiyyə naziri, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri, Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin sədri və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədri bu komissiyanın üzvləri təyin edilmişlər. Komissiyaya, yeni yaradılan agentliyin əsasnamə layihəsi, strukturu və işçilərinin ümumi say həddi barədə təkliflərini 4 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi verilən tapşırıqlar arasında öz əksini tapmışdır. Prezidentin fərmanı ilə müəyyən edilmişdir ki, 2018-ci il yanvarın 1-dən etibarən Komissiyanın səlahiyyət müddəti başa çatacaq.

Sözügedən fərmana əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti beynəlxalq təcrübə nəzərə alınmaqla, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası qanun layihəsini 6 ay müddətində hazırlayaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək. Bununla yanaşı Nazirlər Kabineti Agentlik ilə birlikdə 6 ay müddətində "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin olunmasına dair 2018–2025-ci illər üçün dövlət proqramı"nın layihəsini də hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək. Dövlət proqramı hazırlanarkən aşağıdakı prioritet istiqamətlər əsas götürüləcək:

- qida məhsullarının təhlükəsizliyinə dair normativ hüquqi aktların, o cümlədən standartların, sanitariya, fitosanitariya və baytarlıq norma və qaydalarının "Bitki mühafizəsi haqqında" Beynəlxalq Konvensiyanın, Kodeks Alimentarius Komissiyasının və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının standartlarına və tələblərinə uyğunlaşdırılmasının təmin edilməsi;

- qida məhsullarının uyğunluğunun qiymətləndirilməsi (təsdiqi) sisteminin beynəlxalq tələblərə müvafiqliyin təmin edilməsi;

- beynəlxalq təcrübə nəzərə alınmaqla, qida məhsullarının risk qrupları (aşağı, orta və yüksək risk) üzrə təsnifatının aparılması

və risk qiymətləndirilməsi meyarlarının müəyyənləşdirilməsi;

- genetik modifikasiya olunmuş orqanizmlərin və onların törəmələrinin dövriyyəsinə nəzarət sisteminin təkmilləşdirilməsi;

- “tarladan süfrəyədək” prinsipi əsasında qida məhsulları istehsalının bütün mərhələlərində məhsulun daşıdığı risk səviyyəsinə uyğun olaraq, nəzarət sisteminin və mexanizmlərinin işlənib hazırlanması və həyata keçirilməsi;

- qida təhlükəsizliyi sahəsində kadr potensialının gücləndirilməsi;

- qida məhsullarının təhlükəsizliyi ilə bağlı maddi-texniki bazanın gücləndirilməsi və modernləşdirilməsi (o cümlədən laboratoriyalar şəbəkəsinin genişləndirilməsi və laboratoriyaların beynəlxalq akkreditasiyadan keçirilməsi).

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 fevral tarixli “Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” fərmanı həm də müxtəlif orqanların fəaliyyətində paralelliyin aradan qaldırılması üçün səlahiyyət bölgüsünün dəqiq sərhədlərini müəyyənləşdirməyə şərait yaratmışdır. Belə ki, fərmana əsasən baytarlıq, bitki mühafizəsi və karantin sahəsində (heyvan və bitki mənşəli məhsullar və xammal istisna olmaqla) dövlət nəzarətinin həyata keçirilməsi və xidmətlərin göstərilməsi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, heyvan və bitki mənşəli məhsullar və xammal da daxil olmaqla qida məhsullarının təhlükəsizliyinə nəzarətin həyata keçirilməsi isə Agentlik tərəfindən reallaşdırılması ilə bağlı səlahiyyət bölgüsü aparılacaq. Nazirlər Kabineti bu sahədə nəzarətin həyata keçirilməsi zamanı digər dövlət orqanları və qurumlarının səlahiyyətlərinin təkrarlanması hallarının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Agentliklə birlikdə mövcud normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini 4 ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edəcək.

Bundan əlavə, Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi Agentliklə birlikdə Agentliyin fəaliyyətinin təşkili üçün maddi-texniki təminat məsələlərini həll etməli, digər dövlət orqanları və qurumlarının Agentliyin fəaliyyətinin həyata keçirilməsinə xidmət edə bilən dövlət əmlakının inventarizasiyasını apararaq, həmin əmlakın Agentliyə verilməsi ilə bağlı təkliflərini 5 ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi nəzərdə tutulmuşdur.

Eyni zamanda onu da qeyd etmək yerinə düşər ki, Qida Təhlükəsizliyi Agentliyinin Kodeks Alimentarius Komissiyasının Azərbaycan üzrə Milli Əlaqələndiricisi təyin edilməsi təmin edilməli tapşırıqlar arasında öz əksini tapmışdır ki, bu addım sözügedən sahədə aparılacaq fəaliyyətin daha da dərinləşdirilməsinə xidmət edəcəkdir.

Vahid nəzarət orqanı funksiyasını yerinə yetirən Qida Təhlükəsizliyi Agentliyinin yaradılması nəticəsində ölkədə qida təhlükəsizliyinə nəzarət sisteminin təkmilləşdirilməsi, bu sahədə şəffaflığı daha da artıracaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldıracaq, habelə

“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulmuş tədbirlərin uğurla həyata keçirilməsini təmin ediləcək.



# AZƏRBAYCAN RƏQƏMSAL TİCARƏT QOVŞAĞI

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev qeyri-neft sektorunun yüksək inkişaf tempini qoruyub saxlamaqla, onun ixrac imkanlarını genişləndirmək və rəqabət qabiliyyətini daha da artırmaq, mövcud elektron ticarətin hüquqi və infrastruktur bazasını beynəlxalq tələblərə uyğunlaşdırmaq, regional əhəmiyyətli rəqəmsal ticarət qovşağı kimi Azərbaycan Respublikasının aparıcı mövqeyini daha da gücləndirmək məqsədilə müvafiq Fərman imzalayıb.

Fərman sahibkarlar üçün elektron ticarətin daha da asan və əlverişli olması üçün bir sıra mühüm addımların atılmasını nəzərdə tutur. Fərmana əsasən, Azərbaycan sahibkarlarının xarici biznes tərəfdaşları imzalanan sənədlərin, müqavilələrin elektron tərtibinə və imzalanmasına, eləcə də real vaxt rejimində elektron xidmətlərin keçirilməsinə imkan verən "Azərbaycan Rəqamsal Ticarət Qovşağı" bölməsinin artıq özünü doğrultmuş www.azexport.az internet portalında yaradılmasını nəzərdə tutur.

Bununla, Azərbaycan Respublikasında istehsal olunan malları elektron ticarət qaydasında təqdim edən ixracatçıların ixrac əməliyyatlarını həyata keçirmək üçün tələb olunan bütün növ icazələrin elektron formada "Bir Pəncərə" prinsipi ilə əldə olunmasına platforma yarıdılır.

Fərman ölkə sahibkarlarının ticarət əməliyyatlarının elektron üsulla aparılması üçün müxtəlif ölkələrlə elektron imzaların qarşılıqlı tanınması istiqamətində addımların atılmasını, o cümlədən ölkəmizin bu istiqamətdə dünya miqyasında qəbul olunmuş innovativ məhsullarından olan "ASAN imza"-nın təşviqinin aparılmasını nəzərdə tutur.

Fərmandan irəli gələn vəzifələrin həyata keçirlməsi məqsədilə müxtəlif bazarların araşdırılması, potensial ixracat partnyorlarının sahə üzrə qanunvericiliklərinin təhlili və sahibkarlara əməli dəstəyin və konsaltinq xidmətlərinin göstərilməsi istiqamətində işlərin aparılması nəzərdə tutulan tədbirlər arasında öz əksini tapmaqdadır.

Fərman xarici ticarətdə iştirak edən dövlət orqanları üzərinə konkret vəzifələr qoymaqla, sahibkarlığın inkişafı sahəsində şəffaflığın və hesabatlılığın artırılmasına yönəlmiş mühüm addım kimi səciyələndirilir.

"ASAN imza"nın təşviqi və elektron imzaların tanınması, o cümlədən ümumilikdə yaradılan rəqəmsal platformaların ölkəyə xarici investisiya axını göstəricisinin artırılmasında müsbət təsir göstərməsi gözlənilən tendensiyalar arasındadır.

Bu istiqamətdə aparılan işlər zərurət yarandıqda qanunvericiliyin təkmilləşdirilməsini də nəzərdə tutur.

Qeyd olunanlarla bağlı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (bundan sonra "Mərkəz"), yuxarıda adı çəkilən "Azərbaycan Rəqəmsal Ticarət Qovşağı" ("Digital Trade Hub of Azerbaijan") bölməsinin yaradılmasına cavabdeh qurum təyin olunmuşdur. Eləcə də, Mərkəz elektron icazələrin alınması üçün "Bir Pəncərə" platformasının yaradılmasını həyata keçirəcəkdir.

Bununla yanaşı, mövcud www.azexport.az internet Portalına (bundan sonra "Portal") inteqrasiya olunmuş dövlət orqanlarının informasiya resursları arasında Portal daxilində real vaxt rejimində məlumat mübadiləsi təmin olunacaqdır, aparılan ticarət əməliyyatlara görə ödənişlərin aparılması mümkün olacaq və bu məqsədlə də dünyada son zamanlar geniş yayılmış elektron pul kisəsi yaradılacaqdır. Fərmanla həm də elektron imzaların Portala inteqrasiyası nəzərdə tutulmuşdur.

Qeyd olunmalıdır ki, Fərman məlumatların qorunmasına xüsusi önəm verildiyini vurğulayır və onun təmin olunması üçün ayrıca konkret tapşırıq nəzərdə tutur. Portalın xüsusi özəlliklərindən biri də ondan ibarət olacaq ki, onun idarə olunması dövlət-özəl tərəfdaşlığı prinsipinə və korporativ idarəetmə standartlarına əsaslanaraq təşkil olunacaqdır.

Fərman aidiyyəti qurumlar üzərinə ölkəmizin diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə qeyri-rezidentlərə elektron imza, o cümlədən "ASAN imza" sertifikatının verilməsi imkanının yaradılması, bu istiqamətdə həmçinin xarici ölkələrlə elektron imza, o cümlədən "ASAN imza" sertifikatlarının qarşılıqlı tanınmasının təmin edilməsi vəzifəsini qoyur.

Qeyd olunanlar barəsində aidiyyəti məlumatlar, Fərmana əsasən, müxtəlif dillərdə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərinin və konsulluqlarının internet informasiya ehtiyatlarında yerləşdiriləcək və ümumiyyətlə bu barədə mütəmadi olaraq təbliğat-təşviqat tədbirləri keçiriləcək.

Yaradılmış elektron xidmətləri Dövlət Gömrük Komitəsi informasiya resurslarının Portala inteqrasiyasını nəzərdə tutur. Həmin xidmətlər çərçivəsində Portal vasitəsilə bağlanılmış müqavilələrə uyğun olaraq, ixrac gömrük bəyannamələrinin real vaxt rejimində doldurulması və təqdim edilməsi mümkün olacaqdır, habelə gömrük nəzarətinin nəticəsinin real vaxt rejimində qeyd edilməsi təmin ediləcəkdir.

Portal işə salındıqdan sonra, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqinin ödənilməsi üçün müraciətlərin Portal vasitəsilə elektron formada qəbul edəcəkdir. Burada, İqtisadiyyat Nazirliyinə eyni zamanda icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, icazənin yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsi təmin olunduqdan sonra müəyyən olunmuş hüdudlarda Portala inteqrasiyasını təmin edilməsi tapşırılmışdır.

Vergilər Nazirliyi, öz növbəsində Portal vasitəsilə ixrac əməliyyatlarının aparılması zamanı fiziki və hüquqi şəxslərin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi barədə məlumatların əldə olunması məqsədilə öz informasiya resurslarının Portala inteqrasiyasını təmin edəcəkdir.

Maliyyə əməliyyatlarının tezləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası qarşısında Portal vasitəsilə ixrac təşviqinin ödənilməsi üçün təqdim edilmiş müraciətə əlavə olunmuş, vəsaitin ixracatçının Azərbaycan Respublikasındakı bank hesabına köçürülməsini təsdiq edən sənədin həqiqiliyi barədə məlumatın Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin elektron müraciəti əsasında verilməsini həmin müraciətin daxil olduğu gündən bir iş günü müddətində təmin edilməsi vəzifəsi qoyulmuşdur.

Sahibkarlara əlavə peşəkar dəstəyin göstərilməsi də Fərmanda əksini tapmışdır. Belə ki, "ASAN xidmət" mərkəzlərində ixracatçılara biznes planların və müqavilələrin hazırlanmasında məsləhət xidmətləri, xarici bazarların araşdırılmasında kömək göstərilməsi, habelə təbliğat-təşviqat işinin həyata keçirilməsi ilə bağlı tədbirlər görülməsi tapşırılmışdır.

Elektron şəkildə xarici ticarət zamanı digər ölkələrin qanunvericiliklərinin də nəzərə alınması zərurətinin mövcud olduğunu nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, elektron ticarətin təşkilini tənzimləyən qanunvericiliyin beynəlxalq tələblərə uyğunlaşdırılması və elektron imza, o cümlədən "ASAN imza" sertifikatının beynəlxalq miqyasda qarşılıqlı tanınması

üzrə hüquqi bazanın təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının BMT-nin “Beynəlxalq müqavilələrdə elektron kommunikasiyaların istifadəsinə dair Konvensiya”sına qoşulması ilə bağlı zəruri tədbirlərin görülməsi tapşırılmışdır.

Eyni zamanda, bir sıra aidiyyəti dövlət orqanları icazənin, onun dublikatının və əlavəsinin verilməsinin, icazənin yenidən rəsmiləşdirilməsinin, dayandırılmasının, bərpasının və ya ləğvinin “Lisenziyalar və icazələr” portalı vasitəsilə həyata keçirilməsi ilə bağlı sahibkarlara məsləhət xidmətlərinin göstərilməsi, bu sahədə işlərin əlaqələndirilməsi, eləcə də “Lisenziyalar və icazələr” portalı fəaliyyətə başlayana qədər icazənin, onun dublikatının və əlavəsinin verilməsi, icazənin yenidən rəsmiləşdirilməsi, dayandırılması, bərpası və ya ləğvinə dair müraciətlərin qəbulunu və cavablandırılmasını “bir pəncərə” prinsipi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbir arasında öz əksini tapmaqdadır.




# TİCARƏT FESTİVALLARI

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 1 sentyabr tarixli 2295 nömrəli Sərəncamına əsasən, Azərbaycanda hər il Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil ediləcək ticarət festivalları keçiriləcəkdir. Buna müvafiq olaraq, ticarət festivalları dövründə ölkəmizə daha çox xarici turistin cəlb edilməsi, eləcə də turistlərin və yerli vətəndaşların ticarət festivallarına marağının artırılması məqsədilə festival dövründə pərakəndə satış zamanı bir sıra güzəştlərin, o cümlədən vergi güzəştlərinin verilməsi nəzərdə tutulur.

Sərəncama əsasən, ticarət festivalları dövründə Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisi geri qaytarılacaqdır. Bu qayda vətəndaşlar və xarici turistlər də daxil olmaqla bütün fiziki şəxslərə şamil edilir. Qaydaya əsasən bir elektron vergi hesab-fakturası üzrə malların dəyəri (ƏDV ilə birlikdə) 100 manatdan çox olduğu halda əlavə dəyər vergisinin qaytarılması nəzərdə tutulur. Alınmış mallara görə ödənilmiş ƏDV həmin malların alındığı gün ərzində geri qaytarılır.

Bununla bağlı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nı 20 fevral 2017-ci il tarixli Fərmanı ilə təsdiq etmişdir.

Ümumilikdə bu Qayda Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 165.4-cü maddəsinə uyğun olaraq, ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin (ƏDV) geri qaytarılması qaydasını tənzimləyir. Bu Qaydanın tələbləri, aşağıda göstərilən mallar istisna olmaqla, yalnız istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan və ticarət festivalları dövründə alınmış istehlak mallarına şamil edilir:

- aksizli mallar;

- ərzaq malları;

- dərman preparatları və tibbi ləvazimatlar;

- ölkə daxilində satışı ƏDV-dən azad edilən mallar;

- çərçivəyə salınmamış, emal edilməmiş və ya çeşidlənməmiş qiymətli daşlar;

- külçə şəklində qiymətli metallar;

- nəqliyyat vasitələri və onların ehtiyat hissələri.

Fərmana əsasən təsdiq olunmuş Qaydada fiziki şəxs, alıcı, satıcı, stiker, risk, risk qiymətləndirmə sistemi, ƏDV köşkü, müvəkkil bank, operator, vahid məlumat bazası və sair bu Qaydanın məqsədləri üçün istifadə olunan əsas anlayışlar kimi göstərilmişdir. Qaydada operator səlahiyyətlərinin Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Operatorun səlahiyyətlərinə aşağıdakılar aiddir:

1. bu Qayda ilə müəyyən edilmiş hallarda malların satışının rəsmiləşdirilməsi və ƏDV-nin qaytarılması işlərinin təşkili;

2. aşağıdakı tələblərə cavab verən proqram təminatının və vahid məlumat bazasının yaradılmasını və idarə edilməsinin təmin edilməsi:

- ticarət festivalları dövründə ƏDV-nin qaytarılması şərtilə alıcılara təqdim edilmiş mallar üzrə Elektron Vergi Hesab Faktura-nın (e-VHF) tərtib edilməsi, ştrix-kodla birlikdə çap edilməsi və həmin e-VHF-lər barədə məlumatların aidiyyəti üzrə ötürülməsi;

- alıcı tərəfindən ƏDV köşkündə təqdim edilən e-VHF-nin ştrix-kodu əsasında e-VHF-nin məlumatlarının eyniləşdirilməsi;

3. proqram təminatının daim işlək vəziyyətdə saxlanılması və fasiləsiz fəaliyyətinin həyata keçirilməsi;

4. alınmış mallara görə ödənilmiş ƏDV-nin

qaytarılmasının rəsmiləşdirilməsi məqsədilə ƏDV köşklərinin fəaliyyətini təşkil edilməsi və onların sayı, ünvanı və iş qrafikini Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə razılaşdırmaqla, ticarət festivalı dövründə alınmış mallara görə ödənilmiş ƏDV həmin malların alındığı gün ərzində qaytarılması imkanının təmin edilməsi;

5. ƏDV köşkündə risk qiymətləndirilməsinin nəticəsindən asılı olaraq mallara baxışın keçirilməsi;

6. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə birlikdə stikerin formasını və tətbiqi qaydasının müəyyən edilməsi.

Fərmanda Vergilər Nazirliyi tərəfindən həyata keçirilməsi tapşırılan məsələlərə Qaydada nəzərdə tutulan müvəkkil bankı (bankları) Mədəniyyət və Turizm Nazirliyinin rəyini nəzərə almaqla və Maliyyə Bazarlarına Nəzarət Palatası ilə razılaşdırmaqla on beş gün müddətində müəyyən etməsi, həmçinin ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması sisteminin Azərbaycanda tətbiqi məqsədilə həmin Qaydada nəzərdə tutulan infrastrukturun, o cümlədən proqram təminatının və vahid elektron məlumat bazasının yaradılmasını, onun vergi orqanının və müvəkkil bankın (bankların) istifadəsində olan elektron informasiya sistemlərinə inteqrasiyasını ilk ticarət festivalından əvvəl vergi orqanlarının büdcədənkənar fondu hesabına təmin etməsi aiddir. Bundan başqa Vergilər Nazirliyinin qarşısında duran digər məsələlər kimi vahid elektron məlumat bazasında toplanan məlumatların təhlükəsizliyini və məlumat mübadiləsinin fasiləsizliyini təmin edilməsi, risklərin azaldılması və ƏDV-nin qaytarılması ilə bağlı prosedurların asanlaşdırılması məqsədilə malların fiziki yoxlanmasının bu Qaydanın tələblərinə uyğun olaraq risk qiymətləndirmə sistemi əsasında həyata keçirilməsi və Fərmandan irəli gələn digər məsələləri həll etməsi göstərilir.

Sözügedən Fərmanda Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Azərbaycan Respublikasının Vergilər Nazirliyinin birlikdə görəcəyi işlər sırasına ticarət festivalları dövründə fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş ƏDV-nin qaytarılması sisteminin Azərbaycan Respublikasında tətbiqi ilə bağlı təbliğat, təşviqat və məlumatlandırma tədbirlərini, o cümlədən kütləvi informasiya vasitələrində və sistemə qoşulacaq ticarət obyektlərində videoçarxların yayımlanmasını və Qaydada nəzərdə tutulan stikerin formasını və tətbiqi qaydasını müəyyən etməsi, həmçinin festivalların yüksək səviyyədə keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin ticarət festivallarında ƏDV-nin qaytarılması prosesində iştirak edən əməkdaşlarına təlimlər keçilməsini və onların maarifləndirilməsi aiddir.

Fərmanda Azərbaycan Respublikasının Maliyyə Nazirliyi aşağıdakı fəaliyyətlərin həyata keçirilməsini təmin edəcək:

1. ticarət festivalları dövründə alıcı tərəfindən ödənilmiş ƏDV-nin, bu Fərmanla təsdiq edilmiş Qaydanın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikası Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxil olan ƏDV üzrə faktiki mədaxilin həmin məbləğ həddində azaldılması hesabına geri qaytarılması;

2. Azərbaycan Respublikasının Vergilər

Nazirliyinin rəyini razılaşdırmaqla on beş gün müddətində təsdiq etməsi;

3. bu Qaydanın məqsədləri üçün müvəkkil banka avans şəklində köçürüləcək minimum məbləği iki ay müddətində müəyyən edib, həmin məbləğin ödənilməsi nəzərdə tutulmuş ardıcıl qaydada olan tədbirlər vasitəsilə təmin etməsi.

Bununla yanaşı Fərmanda bütün mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, aidiyyəti dövlət qurumlarının bu Fərmandan irəli gələn vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikasının Vergilər Nazirliyinə, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinə və digər səlahiyyətli dövlət qurumlarına köməklik göstərmələri öz əksini tapmışdır.

Qeyd etmək lazımdır ki, malların satışının rəsmiləşdirilməsi zamanı ticarət festivalı dövründə alıcı aldığı malların dəyərini ödəmək məqsədilə ödəniş nöqtəsinə yaxınlaşdıqda satıcı ondan ƏDV-nin qaytarılması hüququndan istifadə etmək barədə istəyinin olub-olmadığını dəqiqləşdirir. Alıcı ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istədikdə, satıcı ona bu Qaydanın tələbləri barədə ümumi məlumat verir.

Alıcı əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda isə satıcı ona bu Qaydanın tələbləri ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın tələbləri barədə ümumi məlumat verir. Alıcı qismində iştirak edən əcnəbi və ya vətəndaşlığı olmayan şəxs seçiminə uyğun olaraq, aldığı mallara görə ödənilmiş ƏDV-nin bu Qaydanın tələbləri və ya “Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası”nın tələbləri çərçivəsində qaytarılmasını tələb edə bilər.

Qeyd edək ki, alıcı tərəfindən ƏDV-nin qaytarılması hüququndan istifadə etmək istəyi bildirildikdən sonra satıcı aşağıdakı məlumatları özündə əks etdirən, formasını Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi e-VHF-ni Azərbaycan Respublikası Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalında elektron vergi hesab-faktura sistemi vasitəsilə tərtib edir və həmin məlumatları real vaxt rejimində vahid məlumat bazasına ötürür:

- e-VHF-nin seriyası, nömrəsi və tarixi;
- satıcının adı, soyadı, təsərrüfat subyektinin ünvanı və VÖEN-i;
- alıcının adı və soyadı;
- alıcının şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi;
- alıcının vətəndaşı olduğu ölkənin adı (vətəndaşlığı olmayan şəxsin gəldiyi ölkənin adı);
- satılmış malın adı, miqdarı, vahidinin qiyməti və həmin qiymətin tərkibindəki ödənilmiş ƏDV-nin məbləği;
- həmin e-VHF üzrə alınmış mala görə ödənilmiş ƏDV-nin qaytarılacağı son tarix;
- alıcının bank kartının (və ya hesabının) rekvizitləri – alıcının istəyi əsasında;
- operatorun və müvəkkil bankın əlaqə

məlumatları və rekvizitləri;

- satıcının təsərrüfat subyektinə ən yaxın ƏDV köşkünün ünvanı.

E-VHF ştrix-kod əks olunmaqla iki nüsxədə çap edilir və hər iki nüsxə alıcıya təqdim olunur. Belə ki, E-VHF satıcının imzası və mərkəzində bu əməliyyatların ƏDV-nin qaytarılması şərtilə həyata keçirildiyinə dair təsdiqedici qeyd olan möhürlə təsdiqlənməklə təqdim edilir.

Alıcı tərəfindən ticarət festivalı dövründə alınmış mallar üzrə ödənilmiş ƏDV-nin qaytarılması məqsədilə ƏDV köşkündə aşağıdakı ardıcıllıqla tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- alıcı mallara dair e-VHF-ni ƏDV köşkündə vergi orqanının əməkdaşına təqdim edir;

- e-VHF-nin məlumatları vergi orqanı tərəfindən vahid məlumat bazasında eyniləşdirildikdən sonra avtomatik risk qiymətləndirməsi aparılır;

- risk qiymətləndirməsinin nəticələri əsasında mallara vergi orqanının əməkdaşı tərəfindən baxılmalı olub-olmadığı proqram təminatı vasitəsilə açıqlanır. Mallara baxışın keçirilməsi tələb edildiyi halda alıcı həmin malları baxışın keçirilməsi məqsədilə vergi orqanının əməkdaşına təqdim edir. Vergi orqanının əməkdaşı təqdim edilmiş mallarla vahid məlumat bazasına daxil edilmiş məlumatların uyğunluğunu yoxlayır, yoxlamanın nəticələrinə uyğun olaraq, alıcıya qaytarılacaq ƏDV məbləği barədə alıcının təqdim etdiyi e-VHF-də təsdiq qeydi aparır, onu möhürlə təsdiq etməklə alıcıya təqdim edir və vahid məlumat bazasında e-VHF-ni təsdiq etməklə bu barədə məlumatı real vaxt rejimində müvəkkil banka ötürür;

- risk qiymətləndirməsinin nəticələri əsasında alıcıdan malları baxış üçün təqdim etmək tələb olunmadıqda, qaytarılacaq ƏDV-nin yekun məbləğini əks etdirən e-VHF vergi orqanının əməkdaşı tərəfindən möhürlə təsdiq olunur və bu barədə məlumatlar real vaxt rejimində müvəkkil banka ötürülür.

Alıcı ƏDV köşkündə yoxlamadan keçdikdən sonra müvəkkil bank vergi orqanı tərəfindən möhürlə təsdiq olunmuş e-VHF-yə əsasən, qaytarılmalı olan ƏDV məbləğini həmin malların alındığı gün ərzində milli valyutada nağd ödəniş və ya 10 iş günündən gec olmayaraq milli valyutada (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə isə milli və ya xarici valyutada) bank kartına (və ya hesabına) köçürmə qaydasında qaytarır. Alıcının istəyinə uyğun olaraq ƏDV-nin qaytarılması bank kartına (və ya hesabına) köçürmə qaydasında həyata keçirildiyi təqdirdə, alıcı vergi orqanı tərəfindən təsdiqlənmiş, Qaydada nəzərdə tutulan alıcının bank kartının (və ya hesabının) rekvizit məlumatlarını əks etdirən e-VHF-nin bir nüsxəsini ƏDV köşkündə bu məqsəd üçün yaradılmış xüsusi qutuya atır. Alıcının bank kartının (və ya hesabının) rekvizit məlumatlarının əks olunduğu e-VHF-lər müvəkkil bank tərəfindən vahid məlumat bazasında təsdiq edilir və qaytarılmalı vəsait (xarici valyuta ekvivalenti müəyyən edilərkən, müvəkkil bankın ƏDV-nin qaytarıldığı tarixə müəyyən etdiyi məzənnə əsas götürülməklə), müvəkkil bank tərəfindən operatorun göstərdiyi xidmətlər üçün 20% və bank əməliyyatlarının aparılmasına görə xidmət haqları çıxılmaqla alıcının göstərdiyi bank kartına (və ya hesabına) köçürülür.

Müvəkkil bank ticarət festivalı dövründə Qaydaya əsasən qaytarılmış ƏDV məbləği barədə məlumatı həmin malların alındığı gün başa çatdıqdan sonra 5 iş günü müddətində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə və Azərbaycan Respublikasının

Mədəniyyət və Turizm Nazirliyinə təqdim edir. Azərbaycan Respublikasının Vergilər Nazirliyi 5 iş günü müddətində bu barədə olan rəyini nəzərdə tutulmuş müddət başa çatdıqdan sonra Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi isə Vergilər Nazirliyindən rəy daxil olduqdan sonra 3 iş günü müddətində həmin məbləğin müvəkkil banka köçürülməsini Azərbaycan Respublikası Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə daxil olan ƏDV üzrə faktiki mədaxilin həmin məbləğ həddində azaldılması hesabına təmin edir.

Alıcı aldığı malı geri qaytardıqda, satıcı alıcıya təqdim etdiyi e-VHF-nin kağız daşıyıcıda olan nüsxələrini geri alır və elektron məlumat bazasında həmin e-VHF-ni ləğv etməklə müvafiq qeydlər aparır. Alıcı ƏDV-ni geri aldıqdan sonra malı qaytararsa, satıcı malın ƏDV-siz dəyərini alıcıya qaytarır.

# DÖVLƏT İMTAHAN MƏRKƏZİ: QƏBUL İMTAHANLARININ TƏNZİMLƏNMƏSİ İLƏ BAĞLI DƏYİŞİKLİKLƏR

Azərbaycan Respublikasının Prezidentinin 24 fevral, 2017 tarixli Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncamı əsasında əhalinin sosial müdafiəsini daha da gücləndirmək, maddi vəziyyətindən asılı olmayaraq şəxslərin təhsilini davam etdirməsini təmin etmək, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunu stimullaşdırmaq məqsədi ilə bu sahədə bir sıra dəyişikliklər edilmişdir.

Təhsilin inkişafının təmin edilməsi dövlətin sosial-iqtisadi siyasətinin əsas prioritetlərindəndir. Bu səbəbdən son illərdə bu istiqamətdə bir sıra mühüm addımlar atılmışdır.

Təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir.

Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikasında təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılmasına və ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunlaşdırılmasına ehtiyac duyulmuşdur. Bu məqsədlə normativ hüquqi baza təkmilləşdirilmiş, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənmişdir.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrində də beynəlxalq təcrübə nəzərə alınmaqla kadr hazırlığının təkmilləşdirilməsi, potensial istedadlı gəncləri aşkarlayaraq cəlb edən, aparıcı sektorları əmək məhsuldarlığı yüksək olan, innovativ işçi qüvvəsi ilə təmin edən və beynəlxalq səviyyədə tanınan rəqabətqabiliyyətli sistemin qurulması əsas strateji hədəf və prioritetlər kimi müəyyən edilmişdir.

Bununla yanaşı, təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsil idarəetmə sisteminin yenidən qurulması bu sahədə aparılan islahatlar arasında öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanına əsasən, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun həyata keçirilməsi üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi yaradılmışdır. Mərkəzin yaradılmasının əsas məqsədi “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na əsaslanaraq, təhsil müəssisələrinə tələbə qəbulunu beynəlxalq təcrübəyə uyğunlaşdırmaqla təhsilin iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməkdir.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi mərkəzləşdirilmiş qaydada vətəndaşların dövlət qulluğuna qəbulunun müsabiqə əsasında həyata keçirilməsini təşkil edən və onun şəffaflığını təmin edən; ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsini (attestasiyasını), orta ixtisas təhsili müəssisələrinə, ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura (tibb təhsili üzrə əsas təhsil və rezidentura) səviyyələrinə, Azərbaycan Milli Elmlər Akademiyasında magistratura səviyyəsinə mərkəzləşdirilmiş qaydada tələbə qəbulunu həyata keçirən publik hüquqi şəxsdir. Mərkəz öz fəaliyyətini müstəqil şəkildə həyata keçirir və öz vəzifələrini və hüquqlarını yerinə yetirərkən dövlət və yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət

təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.
Azərbaycan Respublikasının Prezidentinin 24 fevral, 2017 tarixli Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında sərəncamı əsasında əhalinin sosial müdafiəsini daha da gücləndirmək, maddi vəziyyətindən asılı olmayaraq şəxslərin təhsilini davam etdirməsini təmin etmək, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunu stimullaşdırmaq məqsədi ilə bu sahədə bir sıra dəyişikliklər edilmişdir.

Sərəncama əsasən orta ixtisas təhsili müəssisələrinə və ali təhsil müəssisələrində ali təhsilin bakalavriat səviyyəsinə tələbə qəbulu ilə bağlı Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda iştirak etmək haqqı Azərbaycan Respublikası Tarif Şurasının müəyyən etdiyi qiymətlərə uyğun olaraq müəyyən edilir.

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi bu Sərəncama əsasən imtahanlarda iştirak üçün ödənişi dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməli olan abituriyentlərin siyahısını sənəd qəbulu başa çatdıqdan on beş gün müddətində hazırlayaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etməlidir. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi öz növbəsində Sərəncamın digər hissəsinə müvafiq olaraq, təqdim olunan siyahı əsasında Azərbaycan Respublikası Tarif Şurasının müəyyən etdiyi qiymətlərə uyğun olaraq hesablanmış vəsaitin “Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 dekabr tarixli Fərmanınında nəzərdə tutulan vəsait hesabına siyahı təqdim edildikdən sonra on beş gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə ödənilməsini təmin etməlidir.

Onu da qeyd etmək lazımdır ki, əhalinin maddi və sosial rifah halını daha da gücləndirmək və maddi vəziyyəti qənaət-bəxş olmayan əhalinin təhsilini davam etdirilməsini stimullaşdırmaq məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ilk dəfə orta ixtisas müəssisələrinə, həmçinin ali təhsilin bakalavriat səviyyəsinə müraciət etmiş tələbələr dövlət hesabına imtahan vermiş olacaqlar.

Sözügedən sərəncam dövlətin vətəndaşların orta və ali təhsilini davam etdirmək üçün əlverişli şərait yaratmaq, təhsilin stimullaşdırılması, bərabər hüquqlu təhsil almaq imkanı və vətəndaşların daha da savadlı olması istiqamətində islahatları özündə ehtiva edir.


/iqtisadiislahat
(+994)12 5213318
info@ereforms.org
Bakı şəhəri, Neftçilər pr. ,24
http://iqtisadiislahat.org
http://ereforms.org
http://ecoreform.az